(HƏDIS (6 10

”.Hədis 51: Həzrət Məhəmməd (s) buyurur: “Heç bir işi sabaha saxlama ki, hər günün öz işi var

”.Hədis 52: Həzrət Məhəmməd (s) buyurur: “Özünüz yemədiyinizi yoxsullara yedirməyin

* * *

Hədis 53: Həzrət Məhəmməd (s) buyurur: “Cahil (nadan) bir şəxs ya ifrat edər (həddi aşar), ya ”.da geridə qalar

* * *

Hədis 54: Həzrət Məhəmməd (s) buyurur: “Kim məsləhətləşsə peşman olmaz və kim də orta ”.həddi gözləsə, yoxsul olmaz

* * *

Hədis 55: Həzrət Məhəmməd (s) buyurur: “Bir şəxs özü üçün istədiyini din qardaşı üçün də ”.istəmədikcə mö`min olmaz

* * *

Hədis 56: Həzrət Məhəmməd (s) buyurur: “Heç bir kəs gücü çatmayan şeyi qonağı üçün ”.hazırlamamalıdır

* * *

Hədis 57: Həzrət Məhəmməd (s) buyurur: “Camaata verilən heç bir sədəqə onların arasında ”.yayılan elmdən üstün deyildir

* * *

Hədis 58: Həzrət Məhəmməd (s) buyurur: “O işi ki, istəmirsən camaat səndən görsün, təklikdə

”.də əncam vermə

* * *

Hədis 59: Həzrət Məhəmməd (s) buyurur: “Mən hara, dünya hara?! Mənim dünyadakı vəziyyətim bir ağacın kölgəsində oturan, sonra onu orada qoyaraq durub gedən müsafir kimdir”.

* * *

Hədis 60: Həzrət Məhəmməd (s) buyurur: “Sədəqə verməklə mal azalmaz”.

* * *